# ABŞ Azərbaycanın xarici və daxili siyasət sahəsində addımlarını alqışlayır



***Azərbaycan son illərdə özünün yürütdüyü xarici siyasət kursu ilə dünyanın bütün dövlətləri, eləcə də əsas və nüfuzlu beynəlxalq təşkilatlarla qarşılıqlı-faydalı əməkdaşlıq yolunu tutub. Ölkə həyatının bütün sahələrini əhatə edən islahatlar, 2020-ci ilin payızında BMT qətnamələrinin yerinə yetirilməsi ilə ərazi bütövlüyümüzün təmin olunması və ardınca Qarabağda genişmiqyaslı bərpa-quruculuq işlərinə start verilməsi, eləcə də Bakının Avropanın enerji təhlükəsizliyinə töhfələri, şübhəsiz ki, Azərbaycanın beynəlxalq imicinə çox müsbət çalarlar əlavə edib. Bu, ümummilli liderimiz Heydər Əliyevin müstəqillik dövründə Azərbaycana prezidentlik etdiyi 10 illik müddətdə həyata keçirdiyi, hazırkı Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin uğurla davam etdirdiyi siyasi kurs olaraq daim ölkəmizə böyük hörmət və nüfuz qazandırıb, müstəqilliyimizin və suverenliyimizin möhkəmlənməsinə xidmət edib. Artıq məhz bu uzaqgörən kurs nəticəsində Azərbaycan dünyanın həm Qərb, həm də Şərq istiqamətləri üzrə çox geniş siyasi, iqtisadi və humanitar əlaqələr qurub.***

ABŞ Prezidenti Cozef Baydenin ölkəmizin Müstəqillik Günü münasibətilə Azərbaycan Prezidenti İlham Əliyevə təbrik məktubu göndərməsi də Azərbaycanın həyata keçirdiyi siyasi kursun düzgünlüyünü və həyatiliyini bir daha təsdiq etdi. Azərbaycan dünyanın supergüclərindən biri olan ABŞ-la sıx münasibətlər saxlayıb. Əsasən ölkəmizin müstəqilliyi illərində yaradılmış bu münasibətlər nəticəsində həm Vaşinqton, həm də Bakı ciddi siyasi, iqtisadi dividendlər qazanıb.

Elə ABŞ Prezidentinin təbrik məktubunda da bu barədə də qeyd edilir. Prezident Bayden bildirir ki, Amerika Birləşmiş Ştatları ilə Azərbaycan Respublikası arasında diplomatik münasibətlərin qurulmasından ötən 30 il ərzində enerji mənbələrinin şaxələndirilməsi və beynəlxalq təhlükəsizlik sahələrində əməkdaşlıq öz bəhrəsini verir, Azərbaycan Avropa və dünya bazarlarının təhlükəsizliyinin təmin olunması və sabitləşdirilməsində önəmli rol oynayır.

Məktubda daha sonra deyilir: "Azərbaycanın Ukraynanın suverenliyinə dəstəyi, habelə Ukraynaya göstərdiyi humanitar və enerji sahəsində yardımı vacib ismarıc verir. Biz, həmçinin Sizin terrorizmə qarşı qlobal mübarizəyə verdiyiniz əhəmiyyətli töhfələrinizi təqdir edirik.

İndi Cənubi Qafqazda davamlı sülhə nail olmaq üçün mühüm imkana bəslənən ümid zamanıdır. Amerika Birləşmiş Ştatları bütün Qafqaz və Trans-Xəzər regionunun çiçəklənməsinə imkan verəcək Azərbaycan ilə Ermənistan arasında diplomatik təmasların intensivləşdirilməsinə və Azərbaycanın iqtisadi, nəqliyyat və insanlararası əlaqələrinin qurulmasına kömək etməyə hazırdır. Biz Azərbaycanı bütün azərbaycanlıların hüquq və fundamental azadlıqlarını qoruyan demokratik idarəetmə və islahatlar istiqamətində məqsədyönlü addımlar atmağa dəvət edirik".

ABŞ Prezidenti qeyd edib ki, Rusiyanın Ukraynaya qarşı müharibə ilə beynəlxalq təhlükəsizliyin əsas sütunlarını sıradan çıxarmağa çalışdığı bu qlobal qeyri-sabitlik dönəmində Amerika Birləşmiş Ştatları Azərbaycanın müstəqilliyi və suverenliyinə öz dəstəyini bir daha təsdiqləyir.

Məktubda, həmçinin ABŞ-ın qarşıdan gələn illər və onilliklərdə Azərbaycanla münasibətləri daha da genişləndirmək arzusu ifadə olunub. Təbii ki, Vaşinqtonun rəsmi Bakı ilə münasibətləri genişləndirmək istəyi ölkəmizin demokratiya, insan haqlarına hörmət yolu ilə inadla irəliləməsi, iqtisadi, sosial, idarəetmə və digər sahələrdə genişmiqyaslı islahatlar həyata keçirməsi ilə bağlıdır. Son 30 ildə, Azərbaycan ABŞ-la, eyni zamanda, müdafiə və təhlükəsizlik, enerji təhlükəsizliyi, sülhyaratma əməliyyatları, terrorizmə qarşı mübarizə və digər sahələrdə də əməkdaşlıq edib. Bu əməkdaşlıq daim qarşılıqlı hörmətə əsaslanıb.

Əlbəttə, ABŞ Prezidentinin Azərbaycanın beynəlxalq aləmdə terrorizmə qarşı qlobal mübarizəyə verdiyi əhəmiyyətli töhfələri təqdir etməsi diqqətəlayiq haldır. Çünki rəsmi Bakı uzun illər ABŞ-ın başçılığı ilə beynəlxalq sülhyaratma missiyalarının tərkibində terrorizmə qarşı mübarizənin ön sıralarında olub. Ölkəmiz bu istiqamətdə fəaliyyətini həm Bosniya və Hersoqovinada, həm də Əfqanıstanda sülhyaratma prosesində uğurla həyata keçirib. Azərbaycan sülhməramlıları Əfqanıstanda "Taliban"ın hakimiyyətə gəlməsindən sonra bu ölkəni sonuncu tərk edənlərdən olublar.

2020-ci ilin payızında Azərbaycanın Vətən müharibəsində Ermənistan terrorçuları üzərində tarixi qələbəsi, ölkəmizin BMT-nin məlum qətnamələrini beynəlxalq dəstək olmadan öz gücü ilə yerinə yetirməsi də Baydenin diqqətindən yayınmayıb və Azərbaycan liderinə məktubunda bunu "Cənubi Qafqazda davamlı sülhə nail olmaq üçün mühüm imkana bəslənən ümid" kimi dəyərləndirib. Azərbaycan, əlbəttə, terrorçuluq və vandallıq edərək 30 ilə qədər işğal altında saxladığı əraziləri viran qoymuş Ermənistandan fərqli olaraq "sülhə nail olmaq"la bağlı ümidləri doğruldacaq. Bunu İkinci Qarabağ müharibəsindən sonra Azərbaycanın Qarabağ və Şərqi Zəngəzurda atdığı addımlar da sübut edir. Ermənilərin "Xirosima"ya döndərdiyi Qarabağ bu gün əsl quruculuq-abadlıq meydanına çevrilib. Bu isə, təbii ki, nə ABŞ-ın, nə də Avropa İttifaqının diqqətindən yayınıb. Məhz buna görədir ki, Bayden bəyan edib ki, Amerika Birləşmiş Ştatları bütün Qafqaz və Trans-Xəzər regionunun çiçəklənməsinə imkan verəcək Azərbaycan ilə Ermənistan arasında diplomatik təmasların intensivləşdirilməsinə və Azərbaycanın iqtisadi, nəqliyyat və insanlararası əlaqələrinin qurulmasına kömək etməyə hazırdır.

ABŞ Prezidenti Cozef Bayden bu il iyunun 1-də də Prezidenti İlham Əliyevə məktub ünvanlayıb. Məktubda deyilir: "Hörmətli cənab Prezident.

Amerika Birləşmiş Ştatları və Azərbaycan Respublikası arasında qurulmuş 30 illik diplomatik münasibətlər dövründə biz transmilli təhlükələrlə mübarizə, enerji təhlükəsizliyinin gücləndirilməsi, ikitərəfli ticarət və sərmayələrin təşviqi məsələlərində güclü tərəfdaş olmuşuq. Bakıda Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinə evsahibliyi etdiyiniz vaxtda Sizi əmin etmək istəyirəm ki, Amerika Birləşmiş Ştatları Azərbaycanın sadiq tərəfdaşı olmaqda davam edir.

Bütün dünyada enerji təhlükəsizliyinin təmin olunmasında mühüm dönüş nöqtəsini yaşadığımız bir dövrdə biz həm də təmiz enerjiyə keçidlə bağlı uzunmüddətli öhdəliklərimizi təmin etmək məqsədilə zəruri investisiya və dəyişikliklər edirik. Enerji təhlükəsizliyi ilə bağlı məqsədlərimizə çatmaq üçün şaxələndirmə heç vaxt olmadığı qədər əhəmiyyətlidir və Azərbaycan bu məqsədə nail olmaq üçün regional səylərdə əsas rol oynamışdır. Azərbaycan həm də regional və qlobal bazarların sabitləşdirilməsi baxımından trans-Xəzər əməkdaşlığının nəhəng potensialının reallaşdırılmasında mühüm əhəmiyyətə malikdir. Eyni zamanda, Azərbaycan Cənub Qaz Dəhlizi vasitəsilə və Ukrayna üçün mühüm olan yanacağı təchiz etməklə də Avropanın enerji təhlükəsizliyinin sabitləşdirilməsinə kömək etməkdə həlledici rol oynayır.

Mən Azərbaycanın tam potensialına nail olunması, o cümlədən şaxələndirilmiş iqtisadiyyatın təşviqi, bərpa olunan enerji mənbələrinə investisiyaların yatırılması ilə iqlim dəyişikliyinə qarşı mübarizədə qlobal məqsədlərə töhfə verilməsi, qanunun aliliyi və hesabatlılığın möhkəmləndirilməsi, Azərbaycan xalqının yaşayış standartlarının yüksəldilməsi istiqamətində Sizin davamlı addımlarınızı alqışlayıram. Amerika Birləşmiş Ştatları bizim davamlı tərəfdaşlıq və əməkdaşlığımıza sadiqdir".

ABŞ lideri bu məktubunda əslində Azərbaycan Prezidenti İlham Əliyevin istər beynəlxalq siyasətinə, istərsə də daxili siyasətdə qazandığı uğurlara yüksək qiymət verir. Bu da təkcə ölkəmizin Avropa bazarına daha çox neft və qaz tədarük etməsi, enerji nəqli marşrutlarının şaxələndirilməsinə yeni töhfələr verməsi ilə bağlı deyil. Məktubda qeyd edildiyi kimi, Prezident İlham Əliyev həm də "Azərbaycan xalqının yaşayış standartlarının yüksəldilməsi istiqamətində" mühüm fəaliyyətlər göstərir və ABŞ bu davamlı addımları alqışlayır.

Bu günlərdə Bakı Enerji Həftəsi çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimində çıxış edən Azərbaycan Prezidenti İlham Əliyev də ABŞ-la münasibətlərə yüksək qiymət verib. Prezident deyib: "Mən, həmçinin Birləşmiş Ştatların və Birləşmiş Krallığın hökumətlərinə təşəkkürümü bildirmək istərdim. Onlar enerji siyasətimizin və fəaliyyətimizin bütün mərhələlərində bizə hər zaman böyük dəstək veriblər. Biz həmin böyük dəstəklə bu nəticələrə nail ola bildik. Mən, həmçinin beynəlxalq maliyyə təsisatlarına – Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, Asiya İnkişaf Bankına, Avropa İnvestisiya Bankına, Asiyanın İnfrastruktur və İnvestisiya Bankına, yeni Cənub Qaz Dəhlizini maliyyələşdirmiş bütün banklara təşəkkürümü bildirmək istəyirəm. Ümid edirəm ki, onlar, həmçinin bizim yeni planlarımızın həyata keçirilməsinə, xüsusilə də Trans-Adriatik boru kəmərinin genişləndirilməsinə də maliyyə dəstəyi verəcəklər. Həmçinin biz TANAP-ın genişləndirilməsi haqqında da düşünə bilərik. Çünki artıq dediyim kimi, Azərbaycan qazına tələbat artır, bunun üçün potensial var, siyasi iradə var. Beləliklə, biz təbii qazın nəqli ilə bağlı infrastruktur imkanlarımızın potensial tələbatın səviyyəsinə gətirilməsi üçün vaxt itirməməliyik. Burada yalnız TAP deyil, həm də Cənubi Qafqaz boru kəməri və TANAP sürətli qaydada genişləndirilməlidir və biz bunun üzərində çalışırıq".

Əminik ki, Azərbaycan bundan sonrakı illərdə də həm ABŞ-la, həm də digər tərəfdaş ölkələrlə əməkdaşlığını davam və inkişaf etdirəcək, bununla da dünyaya yeni sülh və tərəqqi mesajları vermiş olacaq.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***